Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Azərbaycanın tərəqqisində vətəndaş cəmiyyətinin töhfələri sürətlə artır

**Demokratik inkişaf yolu seçmiş dünya ölkələrində demokratik təsisatların, vətəndaş cəmiyyətinin inkişafı əhalinin mentalitetindən və ictimai şüur səviyyəsindən də əhəmiyyətli dərəcədə asılıdır.**

Vətəndaş cəmiyyətinin qurulması imkanlarını müzakirə edərkən, xalqın dəyərlərini, əhalinin sosial münasibətlərini və gözləntilərini, insanların bilik səviyyəsini və üçüncü sektorun nə üçün zəruri olduğunu başa düşmələrini araşdırmaq lazımdır.

**Vətəndaş cəmiyyəti Azərbaycanda "demokratiya üçün oksigen" rolunu oynayır**

Real vəziyyətin təhlili göstərir ki, postsovet məkanında, o cümlədən Azərbaycanda gənclərin vətəndaş cəmiyyətinin nə olduğu barədə təsəvvürləri orta və yuxarı yaş qrupları ilə müqayisədə daha yaxındır. Çünki gənclər orta və yuxarı yaş qruplarından fərqli olaraq, müstəqil Azərbaycanda yetişmiş nəsildir. Onlar hesab edir ki, vətəndaş cəmiyyəti dövlətin müdaxiləsi olmadan cəmiyyətdə inkişaf edən şəxsiyyətlərarası, ailə, dini, mədəni, iqtisadi və digər strukturların məcmusudur. Məhz bu variant ən doğru yanaşmadır. Çünki vətəndaş cəmiyyəti kateqoriyası dövlətdən kənar bir sahə kimi fərdi və kollektiv hərəkətlər, eləcə də təşkilat və institutların yaratdığı məzmunu əks etdirir.

Ölkəmizdə son illərdə sistemli xarakter daşıyan islahatlar isə vətəndaş cəmiyyətinin daha da güclənməsinə gətirib çıxarıb. Etiraf olunmalıdır ki, cəmiyyətin bütün sahələrini əhatə edən bu islahatlar Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə həyata keçirilir. Bu islahatlar nəticəsində hakimiyyətin qolları arasında əməkdaşlıq əlaqələri möhkəmlənib, iqtidar-müxalifət dialoqu başlayıb və davam etməkdədir. Eyni zamanda vətəndaş cəmiyyətinin rolu əhəmiyyətli dərəcədə yüksəlib. Belə ki, vətəndaş cəmiyyəti quruculuğunda böyük nailiyyətlər əldə olunub. Bu gün ölkəmizdə vətəndaş cəmiyyəti obrazlı şəkildə deyilsə, "demokratiya üçün oksigen" rolunu oynayır. Azərbaycanda vətəndaş cəmiyyəti hüquqi dövlətin əsas tərəfdaşıdır. Digər tərəfdən, vətəndaş cəmiyyəti olmadan, fəal vətəndaş mövqeyi, azad vətəndaşların iradəsi olmadan, formal demokratiya institutlarının fəaliyyət göstərməsi mümkün deyil. Vətəndaş cəmiyyətinin formalaşması dinamik, rasional düşünən vətəndaş olmadan da baş tuta bilməz. Məşhur demokratiya tədqiqatçısı Qay Ermenin nöqteyi-nəzərindən vətəndaşlığın formalaşması müəyyən xüsusiyyətlərlə səciyyələnən mədəniyyət tələb edir. Vətəndaş ilk növbədə xarici aləmə geniş baxmaq, özünə qapanmaq yox, özündən fərqli olan insanlara açıq olmaq bacarığına yiyələnməlidir. Vətəndaşın ən mühüm xüsusiyyəti kimi tədqiataçılar öz nöqteyi-nəzərini başqalarının fikirləri ilə müqayisə etməyə imkan verən, opponentləri dinləməyə, onların fərqli olmaq hüququnu tanımağa, dəyişiklikləri və yenilənmələri qəbul etməyə vadar edən tolerantlığı qeyd edirlər. Vətəndaşlığın inkişafı bütün səviyyələrdə rəhbərlərin fəaliyyəti haqqında hesabat vermə tələbini nəzərdə tutur ki, bu da idarə edənləri maarifləndirir və hakimiyyətin




korrupsiyasının qarşısını alır. Vətəndaşlıq bir-birini tamamlayan və ayrılmaz üç elementdən ibarətdir. Əvvəla, bu, hüquq və vəzifələrin vəhdətinin dərk edilməsinə əsaslanır, onlar tələb olunmazsa, faydasızdır. O, daha sonra məlumatlandırma ehtiyacından tutmuş siyasi və seçki kampaniyalarında fəal iştiraka qədər konkret vətəndaş hərəkətlərini nəzərdə tutur. Və nəhayət, vətəndaşlıq dəyərlər sisteminə və bu sistemə məna verən mənəvi inanclara əsaslanır. Lakin bütün bunların praktikada özünü göstərməsi üçün dövlət tərəfindən şərait yaradılmalıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin uğurlu inkişafı onunla şərtlənir ki, dövlət yuxarıda qeyd edilən müstəvidə bu sektorun tərəqqisinə əlverişli zəmin formalaşdıra bilib.

**Ermənilərin müharibə cinayətlərinin ifşasında vətəndaş cəmiyyətinin rolu artır**

Bu gün vətəndaş cəmiyyətinin təmsilçiləri Azərbaycan reallıqlarının dünyada təbliği, Ermənistanın müharibə cinayətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında da mühüm rol oynayırlar. Buna konkret misal kimi Ermənistanın mina terrorunu göstərmək olar. Sözügedən səpkidə vətəndaş cəmiyyəti institutları ilə müxtəliq dğvlət qurumlarının sıx əməkdaşlığın qurulması hökumtin əsas fəaliyyət istiqamətlərindəndir. Yeri gəlmişkən xatırladaq ki, elə bir neçə gün əvvəl Azərbaycanda mina təhlükəsi ilə mübarizə proqramında çalışan Qeyri-Hökumət Təşkilatları beynəlxalq təşkilatlara bəyanat ünvanlayıb.

Buarada ona diqqət çəkilib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərini kütləvi şəkildə minalarla və təhlükəli döyüş sursatları ilə çirkləndirən, yaşayış məskənlərini, kəndləri, şəhərləri viran edərək Yer üzündən silmiş erməni hərbi birləşmələrinin qanunsuz əməlləri hələ də davam edir: "Biz vətəndaş cəmiyyəti qurumları olaraq son günlər baş verən və mülki vətəndaşlarımızın dünyasını dəyişmələri ilə nəticələnən mina hadisələri ilə bağlı böyük narahatlıq hissi keçiririk. Düşünürük ki, əgər Azərbaycanın bəşəri mina probleminə dünya ictimaiyyəti ciddi yanaşmazsa, beynəlxalq səviyyədə buna hüquqi qiymət verilməsə, insanlığa qarşı yönəlmiş bu cinayət hər ötən gün daha da dərinləşəcək və daha çox insanın həyatına son qoyacaq. Çox təəssüf ki, baş verən mina partlayışı hadisələri bu problemin təhlükəsinin ciddiyyətini və tərəfimizdən edilən çoxsaylı çağırışların, verilən mesajların və bəyanatların əhəmiyyətini bir daha təsdiq edir... Beynəlxalq təşkilatlar Ermənistan tərəfinin əsassız və münaqişəni yenidən qızışdırmaq, beynəlxalq birlik arasında ədavəti alovlandırmaq kimi provokativ tədbirlərinə deyil, regionda barışın, sülhün və dayanıqlı inkişafın dəstəklənməsi, etimad mühitinin yaradılması naminə fəaliyyətlərin təşviq edilməsinə çağırırıq! Bu xüsusda erməni hərbi birləşmələri tərəfindən minalanmış ərazilərin, eləcə də xüsusi partladıcı vasitələrdən istifadə edilməklə partlayış tələləri qurulmasına etiraz etməli və hüquqi qiymət verməlidirlər". Şübhəsiz ki, Azərbaycan həqiqətlərinin dünya çatdırılmasında vətəndaş cəmiyyəti təmsilçilərinin mühüm rol oynaması təqdirəlayiq haldır.

Vətəndaş cəmiyyətinin yanaşması bundan ibarətdir ki, dəqiq mina xəritələrini Azərbaycana təqdim etməsi üçün Ermənistana təzyiq göstərilməlidir. Hazırda bu xüsusda vətəndaş cəmiyyətinin təmsilçiləri fəal iş aparırlar. Bununla yanaşı, digər müstəvilərdə də ermənilərin qanunsuz fəaliyyətinin, o cümlədən müharibə cinayətlərinin üzə çıxmasında vətəndaş cəmiyyətinin təmsilçilərinin rolu artan xətt üzrə inkişaf edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**